# Vergi qanunvericiliyi

*Tədris Mərkəzinin dinləyiciləri üçün təlim materialı – VI Fəsil*

01.01.2020

Vergilər Nazirliyi Tədris Mərkəzi
M. Əkbərov, R. Əhmədov, A. Mustafayev, T.Abbasov





## Mündəricat

**VI FƏSİL. YOL VƏ MƏDƏN VERGİSİ. SADƏLƏŞDİRİLMİŞ VERGİ**

**I. Yol vergisi**

1.1. Yol vergisi üzrə vergi ödəyiciləri........................................................................................ 4
1.2. Vergitutma obyekti.......................................................................................................... 4
1.3. Yol vergisinin dərəcəsi.................................................................................................... 4
1.4. Yol vergisinin tutulması................................................................................................. 10

**II. Mədən vergisi**

2.1. Mədən vergisi anlayışı.................................................................................................... 11
2.2. Vergi odəyiciləri.............................................................................................................. 11
2.3. Vergitutma obyekti.......................................................................................................... 11
2.4. Verginin dərəcələri.......................................................................................................... 12
2.5. Verginin hesablanması qaydası, ödənilməsi müddəti və bəyannamənin verilməsi........ 13

**III. Sadələşdirilmiş vergi**

3.1. Sadələşdirilmiş verginin ödəyiciləri................................................................................ 15
3.2. Azadolmalar və güzəştlər.................................................................................................18
3.3. Vergitutma obyekti......................................................................................................... 19
3.4. Vergi dərəcəsi.................................................................................................................. 19
3.5. Sadələşdirilmiş verginin hesablanması qaydası, ödəmə müddəti və bəyannamənin verilməsi.................................................................................................................................. 30

Nəzarət sualları.................................................................................................................... 36
Müstəqil öyrənmə üçün tapşırıqlar........................................................................................ 37
Ədəbiyyat............................................................................................................................... 38

# VI FƏSİL. YOL VƏ MƏDƏN VERGİSİ. SADƏLƏŞDİRİLMİŞ VERGİ

## I. Yol vergisi

### 1.1 Vergi ödəyiciləri

**Vergi ödəyiciləri**

- AR-nın ərazisinə daxil olan və həmin ərazidən sərnişin və yük daşınması üçün istifadə edən avtonəqliyyat vasitələrinin sahibləri olan qeyri-rezident şəxslər
- AR-nın ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan şəxslər
- AR-nın ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın idxalı ilə məşğul olan şəxslər

### 1.2 Vergitutma obyekti

**Vergitutma obyekti**

- AR-nın ərazisinə daxil olan və AR-nın ərazisini tərk edən zaman yol vergisinə cəlb olunmalı olan xarici dövlətlərin avtonəqliyyat vasitələri
- AR-nın ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan)avtomobil benzini, dizel yanacağı və maye qaz
- AR-nın ərazisinə idxal edilən avtomobil benzini, dizel yanacağı və maye qaz

### 1.3 Yol vergisinin dərəcələri

Avtonəqliyyat vasitələrinin növündən, mühərriklərinin həcmindən, Azərbaycan Respublikasının ərazisində qaldığı müddətdən, oturacaqlarının sayından, oxların sayından və

avtonəqliyyat vasitəsinin yüklə birlikdə ümumi çəkisindən, Azərbaycan Respublikası ərazisində qət edilən məsafədən, təhlükəli yüklərin daşınmasından asılı olaraq, Azərbaycan Respublikasının ərazisinə daxil olan və Azərbaycan Respublikasının ərazisini tərk edən xarici dövlətlərin avtonəqliyyat vasitələrindən, habelə Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) və Azərbaycan Respublikasının ərazisinə idxal olunan avtomobil benzininə, dizel yanacağına və maye qaza görə yol vergisi aşağıdakı dərəcələrlə hesablanır:

Azərbaycan Respublikasının ərazisinə daxil olan və Azərbaycan Respublikasının ərazisini tərk edən zaman yol vergisinə cəlb olunmalı hallarda xarici dövlətlərin avtomobil nəqliyyatı vasitələrindən:

- minik avtomobilləri üçün mühərriklərinin həcmindən və Azərbaycan Respublikasının ərazisində qaldığı müddətdən asılı olaraq:

| Ölkə ərazisində qaldığı müddət | Mühərrikin həcmi 2000 kub santimetrədək olduqda | Mühərrikin həcmi 2000 kub santimetrdən 4000 kub santimetrədək olduqda | Mühərrikin həcmi 4000 kub santimetrdən çox olduqda |
|---|---|---|---|
| 1 aya qədər | 15 ABŞ dolları | 20 ABŞ dolları | 40 ABŞ dolları |
| 3 aya qədər | 30 ABŞ dolları | 40 ABŞ dolları | 60 ABŞ dolları |
| 1 ilə qədər | 40 ABŞ dolları | 80 ABŞ dolları | 120 ABŞ dolları |
| 1 ildən yuxarı | 40 ABŞ dolları + 1 ildən artıq qalan hər gün üçün 0,5 ABŞ dolları | 80 ABŞ dolları +1 ildən artıq qalan hər gün üçün 0,6 ABŞ dolları | 120 ABŞ dolları+ 1 ildən artıq qalan hər gün üçün 1,2 ABŞ dolları |

Rusiya vətəndaşı mühərrikin həcmi 2000 kub santimetrədək olan öz minik avtomobili ilə iyun ayının 10-da Azərbaycan Respublikasına gəlmiş və həmin ayın 18-də Azərbaycanı tərk etmişdir. Həmin şəxs Azərbaycanın gömrük sərhəddini keçərkən gömrük orqanları tərəfindən ondan 15 ABŞ dolları məbləğində yol vergisi tutulur və dövlət büdcəsinə ödənilir.

- avtobuslar üçün *oturacaq yerlərinin sayından* və *Azərbaycan Respublikasının ərazisində qaldığı müddətdən* asılı olaraq:

| **Ölkə ərazisində qaldığı müddət** | **Oturacaq yerlərinin sayı 12-dək olanda** | **Oturacaq yerlərinin sayı 13-dən 30-dək olanda** | **Oturacaq yerlərinin sayı 31 və çox olanda** |
|---|---|---|---|
| 1 gün üçün | 15 ABŞ dollar | 20 ABŞ dollar | 25 ABŞ dollar |
| 1 həftədəyək | 30 ABŞ dollar | 40 ABŞ dolları | 50 ABŞ dollar |
| 1 aya qədər | 100 ABŞ dollar | 140 ABŞ dollar | 175 ABŞ dollar |
| 3 aya qədər | 300 ABŞ dollar | 400 ABŞ dollar | 500 ABŞ dollar |
| 1 ilə qədər | 1050 ABŞ dollar | 1400 ABŞ dollar | 1750 ABŞ dolları |
| 1 ildən yuxarı | 1050 ABŞ dolları + 1 ildən artıq qaldığı hər gün üçün 12 ABŞ dolları | 1400 ABŞ dolları + 1 ildən artıq qaldığı hər gün üçün 15 ABŞ dolları | 1750 ABŞ dolları + 1ildən artıq qaldığı hər gün üçün 20 ABŞ dolları |

Rusiya Federasiyasına məxsus oturacaq yerlərinin sayı 24 olan avtobus Azərbaycan Respublikasının ərazisində 15 gün qalmışdır. Həmin avtobusdan tutulmalı olan yol vergisinin məbləği 140 ABŞ dolları təşkil edir.

- yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri üçün *oxların sayından* və *Azərbaycan Respublikasının ərazisində qaldığı müddətdən* asılı olaraq:

| **Ölkə ərazisində qaldığı müddət** | **4 (dörd) oxa qədər olanda** | **4 (dörd) ox və çox olanda** |
|---|---|---|
| 1 gün üçün | 20 ABŞ dollar | 30 ABŞ dollar |
| 2 həftəyədək | 40 ABŞ dollar | 80 ABŞ dollar |
| 1 aya qədər | 140 ABŞ dollar | 280 ABŞ dollar |
| 3 aya qədər | 400 ABŞ dollar | 800 ABŞ dollar |
| 1 ilə qədər | 1400 ABŞ dollar | 2800 ABŞ dolları |
| 1 ildən yuxarı | 1400 ABŞ dolları + 1 ildən artıq qaldığı hər gün üçün 15 ABŞ dolları | 2800 ABŞ dolları + 1 ildən artıq qaldığı hər gün üçün 30 ABŞ dolları |

Oxlarının sayı 3 olan Rusiya Federasiyasına məxsus yük avtomobili Azərbaycan Respublikasının ərazisində 4 gün qalmışdır. Bu halda onun ödəməli olduğu yol vergisinin məbləği 40 ABŞ dolları təşkil edir.

- Azərbaycan Respublikasının ərazisinə daxil olan və bəyan edilmiş müddətdən artıq ölkə ərazisində qalan xarici dövlətlərin avtonəqliyyat vasitələri üçün Azərbaycan Respublikasının ərazisini tərk edən zaman ölkə ərazisində artıq qaldığı müddətdən asılı olaraq ödənilməli olan yol vergisinin yekun məbləği yuxarıda qeyd edilənlərə uyğun olaraq hesablanmış yol vergisinin məbləğindən ölkə ərazisinə daxil olarkən ödənilmiş yol vergisinin məbləği çıxılmaqla hesablanır.

- Azərbaycan Respublikası ilə xarici dövlətlər arasında qüvvədə olan beynəlxalq avtomobil əlaqələri haqqında hökumətlərarası sazişlərə əsasən kvotalar çərçivəsində mübadilə edilmiş "İcazə" blankları ilə Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici ölkələrin avtonəqliyyat vasitələri üçün yol vergisi ödəmələrində azadolmalar nəzərdə tutulduğu hallarda daxil olduqları andan 30 gün sonra ölkədə əlavə qaldıqları müddətdən asılı olaraq yol vergisinə cəlb edilirlər.

- Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) avtomobil benzininə, dizel yanacağına və maye qaza görə yol vergisi onların *hər litrinin topdansatış qiymətinə (ƏDV və aksiz daxil olmaqla) 0,02 manatəlavə edilməklə* hesablanır. İdxal olunan avtomobil benzininə, dizel yanacağına və maye qaza görə yol vergisi

Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq müəyyən edilən, lakin onların *hər litrinin topdansatış bazar qiymətindən aşağı olmayan gömrük dəyərinə (ƏDV və aksiz daxil olmaqla) 0,02 manat əlavə edilməklə* hesablanır.

Rezident müəssisə tərəfindən hesabat ayı ərzində 90.000 litr benzin istehsal edilərək yanacaqdoldurma məntəqələrinə satılmışdır. Rezident müəssisə tərəfindən yol vergisinin aylıq məbləği aşağıdakı kimi hesablanacaq:

90.000 x 0.02 = 1800 manat

Yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri üçünoxların sayından və Azərbaycan Respublikasının ərazisində qaldığı müddətdən asılı olaraq hesablanmışverginin məbləği ağır çəkili avtonəqliyyat vasitələri ilə yüklərin daşınmasına görə Azərbaycan Respublikasının ərazisində qət edilən yolun hər kilometri üçün aşağıdakı qədər artırılır:

| | |
|---|---|
| 38 tondan 41 tonadək olduqda | 0,15 ABŞ dolları; |
| 41 tondan 51 tonadək olduqda | 0,30 ABŞ dolları; |
| 51 tondan 61 tonadək olduqda | 0,45 ABŞ dolları; |
| 61 tondan 71 tonadək olduqda | 0,60 ABŞ dolları; |
| 71 tondan 81 tonadək olduqda | 0,75 ABŞ dolları; |
| 81 tondan çox olduqda | 1,8 ABŞ dolları; |

Oxlarının sayı 5, yüklə birlikdə çəkisi 60 ton olan Rusiya Federasiyasına məxsus ağır çəkili avtonəqliyyat vasitəsi Azərbaycan Respublikasının ərazisində 3 gün qalmışdır və bu müddət ərzində 400 km məsafə qət etmişdir. Bu halda həmin avtonəqliyyat vasitəsi üçün ödənilməli olan yol vergisinin məbləği aşağıdakı kimi müəyyən olunur:

80 + (0,45 x 400) = 260 ABŞ dolları.

Deməli, ödənilməli olan yol vergisinin məbləği 260 ABŞ dolları təşkil edir.

Təhlükəli yüklərin daşınmasına görə yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri üçünoxların sayından və Azərbaycan Respublikasının ərazisində qaldığı müddətdən asılı olaraq hesablanmışverginin məbləği aşağıdakı qədər artırılır:

| Ölkə ərazisində qaldığı müddət | 4 oxa qədər olduqda | | | 4 ox və çox olduqda | | |
|---|---|---|---|---|---|---|
| | **az təhlükəli yüklər üçün** | **təhlükəli yüklər üçün** | **xüsusi təhlükəli yüklər üçün** | **az təhlükəli yüklər üçün** | **təhlükəli yüklər üçün** | **xüsusi təhlükəli yüklər üçün** |
| 1 gün üçün | 20 ABŞ dolları | 40 ABŞ dolları | 80 ABŞ dolları | 30 ABŞ dolları | 60 ABŞ dolları | 120 ABŞ dolları |
| 2 həftəyədək | 40 ABŞ dolları | 80 ABŞ dolları | 160 ABŞ dolları | 80 ABŞ dolları | 160 ABŞ dolları | 320 ABŞ dolları |
| 1 aya qədər | 140 ABŞ dolları | 280 ABŞ dolları | 560 ABŞ dolları | 280 ABŞ dolları | 560 ABŞ dolları | 1120 ABŞ dolları |
| 3 aya qədər | 400 ABŞ dolları | 800 ABŞ dolları | 1600 ABŞ dolları | 800 ABŞ dolları | 1600 ABŞ dolları | 3200 ABŞ dolları |
| 1 ilə qədər | 1400 ABŞ dolları | 2800 ABŞ dolları | 5600 ABŞ dolları | 2800 ABŞ dolları | 5600 ABŞ dolları | 11200 ABŞ dolları |
| 1 ildən yuxarı | 1400 ABŞ dolları +1 ildən artıq qaldığı hər gün üçün 15 ABŞ dolları | 2800 ABŞ dolları +1 ildən artıq qaldığı hər gün üçün 30 ABŞ dolları | 5600 ABŞ dolları + 1 ildən artıq qaldığı hər gün üçün 60 ABŞ dolları | 2800 ABŞ dolları +1 ildən artıq qaldığı hər gün üçün 30 ABŞ dolları | 5600 ABŞ dolları +1 ildən artıq qaldığı hər gün üçün 60 ABŞ dolları | 11200 ABŞ dolları + 1 ildən artıq qaldığı hər gün üçün 120 ABŞ dolları |

Oxlarının sayı 5, təhlükəli yüklə birlikdə çəkisi 70 ton olan, Rusiya Federasiyasına məxsus ağır çəkili avtonəqliyyat vasitəsi Azərbaycan Respublikasının ərazisində 3 gün qalmışdır və bu müddət ərzində 300 km məsafə qət etmişdir. Bu halda həmin avtonəqliyyat vasitəsi üçün ödənilməli olan yol vergisinin məbləği aşağıdakı kimi müəyyən olunur:

(80+160) + (0,6 x 300) = 420 ABŞ dolları.

Ödənilməli olan yol vergisinin məbləği 420 ABŞ dolları təşkil edir.

Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) avtomobil benzininə, dizel yanacağına və maye qaza görə hesablanmış yol vergisinə nəzarət dövlət vergi orqanları, Azərbaycan Respublikasının ərazisinə idxal edilən

avtomobil benzininə, dizel yanacağına və maye qaza görə yol vergisinin hesablanmasına və ödənilməsinə nəzarət isə gömrük orqanları tərəfindən həyata keçirilir.

### 1.4 Yol vergisinin tutulması

Xarici dövlətlərin avtonəqliyyat vasitələrindən yol vergisini həmin avtonəqliyyat vasitələri *Azərbaycan Respublikasının gömrük ərazisinə daxil olan zaman* və Azərbaycan Respublikasının ərazisini tərk edərkən yol vergisinə cəlb olunmalı hallarda gömrük orqanları tuturlar və bir bank günü ərzində dövlət büdcəsinə keçirirlər.

Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan şəxslər yol vergisini *aylıq olaraq* hesablayır və *hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq*, Vergilər Nazirliyinin müəyyən etdiyi forma üzrə yol vergisi bəyannaməsini vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

Avtonəqliyyat vasitələrini dövlət qeydiyyatına alan Daxili İşlər Nazirliyi hər rüb hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq, yeni qeydiyyata alınmış və qeydiyyatdan çıxarılmış avtonəqliyyat vasitələri barədə məlumatı Vergilər Nazirliyininmüəyyən etdiyi formada Vergilər Nazirliyinətəqdim edir.

Xarici dövlətlərin yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri aşağıdakı hallarda Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada 2016-cı ilin iyun ayının 1-dən etibarən 3 (üç) il müddətinə yol vergisindən azaddır:

- dəmir yolu ilə nəql edilən yüklər Azərbaycan Respublikası ərazisindəki Nazirlər Kabinetinin müəyyən etdiyi son dəmiryolu stansiyasında xarici dövlətlərin yük avtomobillərinə, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələrinə aşırılaraq ən yaxın gömrük sərhəd buraxılış məntəqəsindən keçirilməklə digər dövlətə daşındıqda;
- xarici dövlətlərin yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri ilə yüklər digər dövlətin ərazisindən Azərbaycan Respublikası ərazisindəki Nazirlər Kabinetinin müəyyən etdiyi ilk dəmir yolu stansiyasına ən yaxın gömrük sərhəd buraxılış məntəqəsindən keçirilməklə daşındıqda.

## *II. Mədən vergisi*

### 2.1 Mədən vergisi anlayışı

Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektorunda faydalı qazıntıların çıxarılmasına görə mədən vergisi tutulur.

2.2 Vergi ödəyiciləri

**Vergi ödəyiciləri**

- AR-nın ərazisində (Xəzər dənizinin (gölünün) AR-na mənsub olan bölməsi də daxil olmaqla) yerin təkindən faydalı qazıntıları çıxaran fiziki şəxslər
- AR-nın ərazisində (Xəzər dənizinin (gölünün) AR-na mənsub olan bölməsi də daxil olmaqla) yerin təkindən faydalı qazıntıları çıxaran müəssisələr

2.3 Vergitutma obyekti

**Vergitutma obyekti**

- AR-nın ərazisində yerin təkindən çıxarılan faydalı qazıntılar
- Xəzər dənizinin (gölünün) AR-na mənsub olan bölməsində yerin təkindən çıxarılan faydalı qazıntılar

2.4 Verginin dərəcələri

1. Yerin təkindən çıxarılan aşağıdakı faydalı qazıntıların növündən asılı olaraq, mədən vergisi onların topdansatış qiymətinə tətbiq edilməklə aşağıdakı kimi müəyyənləşdirilir:

| **Mədən vergisinə cəlb olunan faydalı qazıntıların adı** | **Mədən vergisinin dərəcələri (faizlə)** |
|---|---|
| Xam neft | 26 |
| Təbii qaz | 20 |
| Filiz faydalı qazıntıları:<br>bütün növ metallar | 3 |

Hüquqi şəxs sentyabr ayı ərzində yerin təkindən 20 ton xam neft çıxarmışdır. Xam neftin bir tonunun topdansatış qiyməti 50 manat olarsa, həmin hüquqi şəxsin ödəməli olduğu mədən vergisinin məbləği aşağıdakı kimi təyin olunur:

(20 x 50) x 26% = 260 manat.

2. Yerin təkindən çıxarılan aşağıdakı faydalı qazıntıların növündən asılı olaraq mədən vergisi hər kubmetr üçün aşağıdakı dərəcələrlə hesablanır:

| **Mədən vergisinə cəlb olunan faydalı qazıntıların adı** | **Mədən vergisinin dərəcələri (manatla)** |
|---|---|
| Qeyri-filiz faydalı qazıntıları: | |
| - seolit | 1,0 |
| - barit | 1,0 |
| - mişar daşları | 2,0 |
| - çınqıl xammalı | 1,0 |
| - yüngül doldurucular (keramzit, aqloporit) istehsalı üçün gillər | 1,0 |
| - bentonit gilleri | 1,0 |
| - kərpic-kirəmit gilləri | 1,0 |
| - vulkan külü və pemza | 1,0 |
| - kvars qumları | 1,0 |
| - tikinti qumları | 1,0 |
| - sement xammalı (əhəng daşı, mergel, gil, vulkan külü) | 1,0 |
| - üzlük daşları (mərmər, qabbro, tuflar, travertin, mərmərləşmiş əhəng daşı) | 1,0 |
| - qiymətli və yarımqiymətli bəzək daşlan | 6,0 |
| - duz | 6,0 |
| - yodlu-bromlu sular | 0,04 |
| - mineral sular | 10,0 |

Mineral su istehsalı ilə məşğul olan müəssisə ay ərzində 500 $m^3$ mineral su çıxarmışdır. Bu müəssisənin ödəməli olduğu mədən vergisinin məbləği aşağıdakı kimi təyin olunur:

500 x 10 = 5.000 manat.

<u>2.5. Verginin hesablanması qaydası, ödənilməsi müddəti və bəyannamənin verilməsi</u>

Mədən vergisi xam neft, təbii qaz və filiz faydalı qazıntılar üzrə yerin təkindən çıxarılmış faydalı qazıntıların *topdansatış qiymətinə*, qeyri-filiz faydalı qazıntılar üzrə isə yerin təkindən çıxarılmış faydalı qazıntıların *hər kub metrinə* müvafiq vergi dərəcələrini tətbiq etməklə hesablanır.

Hesabat ayı üçün mədən vergisinin məbləği *faydalı qazıntıların çıxarıldı-ğı aydan sonrakı ayın 20-dən gec olmayaraq* ödənilir.

Mədən vergisinin ödəyiciləri *hər ay hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq vergi orqanına*, yerli büdcələrə daxil olan vergisi üzrə isə *bələdiyyələrə* mədən vergisinin bəyannaməsini verirlər.

Bu maddədə müəyyən edilən qaydada hesablanmış verginin məbləği Vergi Məcəlləsinin 119-cu maddəsi ilə məhdudlaşdırılmayan gəlirdən çıxılmalara aid edilir.

Mədən vergisi (yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi istisna olmaqla) *dövlət büdcəsinə* ödənilir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi *yerli büdcəyə* (bələdiyyə büdcəsinə) ödənilir.




Xam neftin və qazın hasilatı zamanı Vergi Məcəlləsinin 217.1-ci maddəsinə uyğun olaraq mədən vergisi hesablanarkən, hasil edilmiş neftin və qazın miqdarından texnoloji proseslə əlaqədar quyuya geri vurulan neftin və qazın miqdarı *Nazirlər Kabineti* tərəfindən müəyyən edilən normativlər əsasında çıxılır.

Müəssisə 2017-ci ilin aprel ayında dənizdə 330 ton xam neft hasil etmiş və bunun 6 tonunu texnoloji proseslə əlaqədar olaraq quyuya geri vurmuşdur. Neftin 1 tonunun topdansatış qiymətinin 285 manat olduğunu nəzərə alaraq müəssisənin hesablamalı olduğu mədən vergisini müəyyənləşdirin.

Vergi Məcəlləsinin 217.1-ci maddəsinə əsasən mədən vergisi hesablanarkən, hasil edilmiş neftin miqdarından texnoloji proseslə əlaqədar quyuya geri vurulan neftin miqdarı müəyyən edilmiş normativlər əsasında çıxılır. Normativin dənizdə 1,47 % təşkil etdiyini nəzərə alsaq, quyuya geri vurulan neftin miqdarını müəyyən edirik: 330 x 1,47% = 4,857 ton. Onda mədən vergisinə cəlb edilən neftin həcmi 325,149 (330 – 4,857) ton təşkil edəcəkdir. Neftin 1 tonunun topdansatış qiymətinin 285 manat, mədən vergisinin dərəcəsinin 26 % olduğunu nəzərə alsaq hesablanmalı olan mədən vergisini müəyyənləşdirə bilərik:

(325,149  x 285) x 26 % = 24.093,54 manat.

### *III. Sadələşdirilmiş vergi*

3.1 Sadələşdirilmiş verginin ödəyiciləri

Aşağıda göstərilən şəxslər sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququna malikdir:

Vergi Məcəlləsinin ƏDV ilə bağlı fəslinin müddəaları nəzərə alınmaqla, ƏDV məqsədləri üçün qeydiyyata alınmamış və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatların həcmi 200.000 manat və ondan az olan şəxslər

Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs ƏDV məqsədləri üçün qeydiyyata alınmamışdır və onun ardıcıl 12 aylıq dövr ərzində vergi tutulan əməliyyatlarının həcmi 85.000 manat təşkil etmişdir. Belə olan halda həmin fiziki şəxs sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququna malik olur.

Vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər

Sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququna malik olan vergi ödəyicisi (Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını həyata keçirən şəxslər, İdman oyunları ilə əlaqədar aparılan mərc oyunlarının operatoru və satıcıları olan şəxslər və mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsini həyata keçirən şəxslər istisna olmaqla) *hər il aprel ayının 20-dən gec olmayaraq*, müvafiq bəyannaməni və ya sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququndan istifadə etməyəcəyi barədə yazılı məlumatı uçotda olduğu vergi orqanına təqdim edir. Vergi Məcəlləsində başqa hallar nəzərdə tutulmamışdırsa, vergi ödəyicisinin təqvim ilinin sonunadək seçdiyi metodu dəyişdirmək hüququ yoxdur. Vergi ödəyicisi qeyd olunan müddətdə bəyannaməni və ya yazılı məlumatı təqdim etmədikdə, vergi orqanı vergi ödəyicisinin *əvvəlki vergi ilində seçdiyi metodu* tətbiq edir. İl ərzində yeni fəaliyyətə başlayan vergi ödəyicisi vergi uçotuna durmaq üçün *ərizədə qeyd etdiyi metodu* tətbiq edir.

Aşağıda göstərilən şəxslər sadələşdirilmiş verginin ödəyiciləridirlər:

Vergi Məcəllənin 156-cı maddəsinə əsasən könüllü ƏDV qeydiyyatına alınmaq hüququ nəzərə alınmaqla, mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) AR-nın ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsi ilə həyata keçirən şəxslər

İdman oyunları ilə əlaqədar aparılan mərc oyunlarının operatoru və satıcıları olan şəxslər

Mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsini həyata keçirən fiziki şəxslər

Fəaliyyət zamanı işçi cəlb edən fiziki şəxslər istisna olmaqla, Vergi Məcəlləsinin 220.10-cu maddəsində nəzərdə tutulan fəaliyyət növləri ilə fərdi qaydada məşğul olan fiziki şəxslər

Mülkiyyətində olan torpaq sahələrinin təqdim edilməsini həyata keçirən şəxslər

**Sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ olmayan şəxslər**

aksizli və məcburi nişanlama ilə nişanlanmalı olan mallar istehsal edən şəxslər

kredit təşkilatları, sığorta bazarının peşəkar iştirakçıları (icbari sığorta müqavilələri üzrə xidmət göstərən sığorta agentləri istisna olmaqla), investisiya fondları və bu fondların idarəçiləri, qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər, lombardlar

qeyri-dövlət pensiya fondları

əmlakın icarəyə verilməsindən və royaltidən gəlir əldə edənlər

Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş təbii inhisar subyektləri

mükiyyətində olan əsas vəsaitlərin ilin əvvəlinə qalıq dəyəri 1.000.000 manatdan artıq olan şəxslər

publik hüquqi şəxslər

icbari sığorta müqavilələri üzrə xidmət göstərən sığorta agentləri istisna olmaqla lisenziya tələb olunan fəaliyyət növü ilə məşğul olan şəxslər

işçi sayı 10 nəfərdən çox olan istehsal fəaliyyətini həyata keçirən şəxslər

topdansatış ticarət fəaliyyəti qaydasında malların təqdim edilməsini həyata keçirən şəxslər

vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan şəxslərə (əhaliyə) göstərilən xidmətlərdən başqa, xidmətlərin göstərilməsini həyata keçirən şəxslər (Vergi Məcəlləsinin 218.4.1 və 220.10-cu maddələrində nəzərdə tutulan şəxslər və həmçinin icbari sığorta müqavilələri üzrə xidmət göstərən sığorta agentləri tərəfindən xidmətlərin göstərilməsi istisna olmaqla)

qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının, habelə almazın (emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş və emal olunmamış, çeşidlənməmiş, çərçivəyə salınmamış və bərkidilməmiş almaz) satışını həyata keçirən şəxslər

xəz-dəri məmulatlarının satışını həyata keçirən şəxslər

Aşağıdakı hallarda sadələşdirilmiş vergi metodunu tətbiq etmək hüququ saxlanılır:

- pərakəndə satış qaydasında malların təqdim edilməsini həyata keçirən vergi ödəyicisi eyni zamanda topdansatış qaydasında malların satışını həyata keçirdikdə, rüb ərzində elektron qaimə-faktura ilə rəsmiləşdirilməli olan əməliyyatların həcmi ümumi ticarət əməliyyatlarının (satışdankənar gəlirlər istisna olmaqla) həcminin 30 faizindən çox olmadıqda;
- vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan şəxslərə (əhaliyə) göstərilən xidmətlərdən başqa, xidmətlərin göstərilməsini həyata keçirən şəxslər tərəfindən əhaliyə xidmətlə yanaşı hüquqi şəxslərə və vergi ödəyicisi kimi vergi orqanında uçotda olan fiziki şəxslərə xidmətlərin göstərilməsi həyata keçirilirsə, rüb ərzində elektron qaimə-faktura ilə rəsmiləşdirilməli olan əməliyyatların həcmi xidmətlərin göstərilməsi üzrə ümumi əməliyyatların (satışdankənar gəlirlər istisna olmaqla) həcminin 30 faizindən çox olmadıqda.

3.2 Azadolmalar və güzəştlər

Aşağıdakılar sadələşdirilmiş vergidən azaddır:

- ✓ kənd təsərrüfatı məhsullarının istehsalçıları (o cümlədən, sənaye üsulu ilə) tərəfindən özlərinin istehsal etdikləri kənd təsərrüfatı məhsullarının satışından əldə edilmiş hasilatın həcmi - 2014-cü il yanvarın 1-dən 10 il müddətinə;
- ✓ qanunla müəyyən edilmiş hallarda dövlət büdcəsinə olan vergi borclarının silinməsindən əldə olunan gəlir;
- ✓ Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada dövlət büdcəsinin vəsaiti hesabına ödənilən ixrac təşviqi;
- ✓ VM ilə müəyyən olunmuş qaydada gəlirlərin və xərclərin uçotunu aparan, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan və əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatadək olan rezident müəssisənin təsisçisi (payçısı) və yaxud səhmdarları olan şəxslərə ödənilən dividendlər;
- ✓ mülkiyyətdə olan yaşayış və qeyri-yaşayış sahələrinin, habelə torpaq sahələrinin təqdim edilməsi üzrə aşağıdakı təqdim edilmə halları:
  - o fiziki şəxslər tərəfindən azı 3 təqvim ili ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi;
  - o Vergi Məcəlləsinin 102.1.3.2-ci, 102.1.18-ci, 106.1.16-cı, 144.1.1-ci və 144.1.2-ci maddələrində nəzərdə tutulmuş hallar;
  - o fiziki şəxslərin xüsusi mülkiyyətində olan yaşayış sahələrinin 30 kvadratmetrədək olan hissəsi.

Pərakəndə satış qaydasında malların satışının həyata keçirilməsi üzrə ticarət fəaliyyəti və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən büdcəyə ödənilməli olan verginin məbləği 2019-cu il yanvarın 1-dən 3 il müddətinə “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş POS-terminal vasitəsilə nağdsız qaydada aparılan ödənişlərin ümumi hasilatdakı xüsusi çəkisinə uyğun müəyyən edilən verginin 25 faizi həcmində azaldılır.

Bu güzəştin alınması hüququ müəyyən edilərkən, vergi orqanında uçotda olan şəxslər tərəfindən POS-terminal vasitəsilə aparılan ödənişlərin məbləği nəzərə alınmır.

3.3 Vergitutma obyekti

## Vergitutma obyekti

| | |
|---|---|
| AR-nın ərazisində sərnişin və yük daşımalarını həyata keçirən şəxslər üçün | vergi ödəyicilərinin mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri |
| Mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsini həyata keçirən şəxslər üçün | mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələri, o cümlədən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən satın alınmış yaşayış və qeyri-yaşayış sahələri |
| Mülkiyyətində olan torpaq sahələrinin təqdim edilməsini həyata keçirən şəxslər üçün | mülkiyyətində olan torpaq sahələri |
| İdman oyunları ilə əlaqədar aparılan mərc oyunlarının operatoru üçün | oyun iştirakçılarından qəbul edilmiş pul vəsaiti |
| İdman oyunları ilə əlaqədar aparılan mərc oyunlarının satıcısı üçün | operatorun satıcıya verdiyi komisyon haqq |
| Digər vergi ödəyiciləri üçün | hesabat dövrü ərzində vergi ödəyicisi tərəfindən təqdim edilmiş mallara (işlərə, xidmətlərə) və əmlaka görə əldə edilmiş ümumi hasilatın, habelə satışdankənar gəlirlərin həcmi |

Sadələşdirilmiş vergini ödəyən hüquqi şəxs *ƏDV-nin, mənfəət vergisinin*, fiziki şəxs (hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs də daxil olmaqla) isə *gəlir vergisinin və ƏDV-nin* ödəyicisi deyil.

### 3.4 Sadələşdirilmiş verginin dərəcəsi

Sadələşdirilmiş vergi (Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını həyata keçirən şəxslər, idman oyunları ilə əlaqədar aparılan mərc oyunlarının operatoru və satıcıları olan şəxslər, mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsini həyata keçirən şəxslər və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər istisna olmaqla) təqdim edilmiş mallara (işlərə, xidmətlərə) bu verginin ödəyicilərinin malların təqdim edilməsindən, işlərin görülməsindən, xidmətlərin göstərilməsindən əldə etdiyi vəsaitin məbləğindən (ümumi hasilatın həcmindən) və satışdankənar gəlirlərdən 2 faiz dərəcə ilə hesablanır.

Misal. Bakı şəhərində ayaqqabı istehsalı sahəsində fəaliyyət göstərən sadələşdirilmiş verginin ödəyicisi olan şəxsin sentyabr ayı ərzində ümumi hasilatının məbləği 3.000 manat təşkil etmişdir. Onun ödəməli olduğu sadələşdirilmiş verginin məbləği aşağıdakı kimi hesablanır:

3.000 x 2% = 60 manat.

Vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən sadələşdirilmiş vergi (qiymətləri Tarif Şurası tərəfindən tənzimlənən malların satış dövriyyəsi istisna edilməklə) aşağıdakı dərəcə ilə hesablanır:




Misal. Bakı şəhərində ictimai iaşə fəaliyyəti ilə məşğul olan fiziki şəxsin vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrdə 200.000 manatdan artıq olmuş və o sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququnu seçmişdir. Bu fiziki şəxs hesabat dövründə 26.000 manat məbləğində xidmət təqdim etmişdir. Hesabat dövründə təqdim edilmiş xidmətlərin dəyərinin 9.000 manatı nağd şəkildə, 11.000 manatı nağdsız şəkildə ödənilmiş, qalan hissəsi isə ödənilməmiş qalmışdır. Fiziki şəxsin ödəməli olduğu sadələşdirilmiş verginin məbləğini müəyyən edin:

Həlli: (9000 +  11000) x 8% = 1600 man.

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri üçün sadələşdirilmiş vergi aşağıdakı kimi müəyyən edilir:

| **Daşınma növü** | **Sadələşdirilmiş verginin tətbiq edildiyi ölçü vahidi** | **Sadələşdirilmiş verginin aylıq məbləği (manatla)** |
|---|---|---|
| Sərnişin daşınması (taksi istisna olmaqla), oturacaq yerlərinin sayına görə: | 1 oturacaq yeri üçün | 1.8 |
| Taksi ilə sərnişin daşınması | 1 ədəd nəqliyyat vasitəsi üçün | 9.0 |
| Yük daşınması | Yükgötürmə qabiliyyəti üçün (hər tona) | 1.0 |

Sadələşdirilmiş vergi ödəyicisi olan sahibkar balansında olan 15 ədəd taksi ilə sərnişin daşıma fəaliyyəti göstərir. Bu taksilərdən 10 ədədi Bakı şəhəri daxilində, digər 5 ədədi isə Gəncə şəhərində sərnişin daşımasını həyata keçirir. Sahibkarın hesabat dövründə büdcəyə ödəyəcəyi vergini müəyyən edin.

Sərnişin daşınmasının növündən və həyata keçirildiyi ərazidən asılı olaraq, sərnişin daşıma ilə məşğul olan vergi ödəyiciləri üçün sadələşdirilmiş verginin məbləğinə Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) və Bakı şəhəri ilə ölkənin digər yaşayış məntəqələri arasında 2,0 əmsalı, Abşeron rayonu, Sumqayıt, Gəncə şəhərlərində və həmin rayon və şəhərlərlə digər yaşayış məntəqələri arasında 1,5 əmsalı tətbiq edilməklə müəyyən edilir.

Bakı şəhəri daxilində fəaliyyət göstərən taksilər üçün: (10 x 9) x 2 = 180 manat

Gəncə şəhərində fəaliyyət göstərən taksilər üçün: (5 x 9) x 1,5 = 67,5 manat

Onda vergi ödəyicisinin ödəməli olduğu sadələşdirilmiş verginin məbləği aşağıdakı kimi hesablanır:  180  + 67,5 = 247,5 manat

Misal 1. Bakı şəhərində fəaliyyət göstərən avtobusun oturacaq yerlərinin sayı 34-dür. Bu zaman ödənilməli olan aylıq verginin məbləği aşağıdakı kimi hesablanır:

34 x 1.8 x 2 = 122.4 manat.

Misal 2. Şəxs Bakı şəhərində taksi ilə sərnişin daşıması ilə məşğul olur. Onun ödəməli olduğu aylıq verginin məbləği aşağıdakı kimi hesablanır:

9 x 2 = 18 manat.

Misal 3. Bərdə şəhərində qeydiyyatda olan şəxs taksi ilə Gəncə şəhərində sərnişin daşınmasını həyata keçirir. Onun ödəməli olduğu aylıq verginin məbləği aşağıdakı kimi müəyyən edilir: 9 x 1,5 = 13,5 manat.

Şəxs yükgötürmə qabiliyyəti 5,5 ton olan yük ovtomobili ilə Gəncə şəhərində yük daşınması ilə məşğul olur. Həmin şəxsin ödəməli olduğu aylıq verginin məbləği aşağıdakı kimi müəyyən olunur: 5,5 x 1 x 1,5 = 8,25 manat.

Yük və sərnişin daşınmasının növündən və həyata keçirildiyi ərazidən asılı olaraq, sərnişin və yük daşıyan vergi ödəyiciləri üçün sadələşdirilmiş vergi yuxarıda göstərilən sadələşdirilmiş verginin məbləğinə aşağıdakı əmsallar tətbiq edilməklə müəyyən edilir:

- Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) və Bakı şəhəri ilə ölkənin digər yaşayış məntəqələri arasında - ***2,0***;

Bakı-Sumqayıt marşrutu ilə işləyən mikroavtobusun oturacaq yerlərinin sayı 11-dir. Bu zaman ödənilməli olan aylıq verginin məbləği aşağıdakı kimi təyin olunur:

(11 x 1,8) x 2 = 39,6 manat.

- Abşeron rayonu, Sumqayıt, Gəncə şəhərlərində və həmin rayon və şəhərlərlə digər yaşayış məntəqələri arasında (Vergi Məcəlləsinin 220.6.1-ci maddəsində göstərilənlər istisna olmaqla) - ***1,5***;

Gəncə-Yevlax marşrutu ilə işləyən avtobusun oturacaq yerlərinin sayı 14-dir. Bu zaman ödənilməli olan aylıq verginin məbləği aşağıdakı kimi hesablanır:

14 x 1.8 x 1.5 = 37.8 manat.

- Digər şəhər və rayonlarda və həmin şəhər və rayonlarla digər yaşayış məntəqələri arasında (Vergi Məcəlləsinin 220.6.1-ci və 220.6.2-ci maddələrində göstərilənlər istisna olmaqla)—***1,0***.

Şəmkir-Qazax marşrutu ilə işləyən avtobusun oturacaq yerlərinin sayı 22-dir. Bu zaman ödənilməli olan aylıq verginin məbləği aşağıdakı kimi təyin müəyyən edilir:

22 x 1.8 x 1 = 39.6 manat.

Avtomobil nəqliyyatı vasitələrində (taksi istisna olmaqla) oturacaq yerlərinin sayı və ya yük götürmə qabiliyyəti avtomobil nəqliyyatı vasitələrinin *qeydiyyat şəhadətnaməsinə* əsasən müəyyən edilir.

Avtomobil nəqliyyatı vasitələrindəki (taksi istisna olmaqla) oturacaq yerlərinin sayı və ya yükgötürmə qabiliyyəti avtomobil nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsində göstərilmədikdə, həmin göstəricilər Daxili İşlər Nazirliyi tərəfindən vergi orqanlarına verilmiş arayışlar əsasında müəyyən edilir. Oturacaq yerlərinin sayını avtomobil nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsi və ya Daxili İşlər Nazirliyi tərəfindən verilmiş arayışlar əsasında müəyyən etmək mümkün olmadıqda, sadələşdirilmiş verginin məbləği yerlərin faktiki sayına görə müəyyən edilir.

Mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsini həyata keçirən şəxslər üçün sadələşdirilmiş vergi onların mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin, o cümlədən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən satın alınmış yaşayış və qeyri-yaşayış sahələrinin *hər kvadratmetri üçün 15 manat* olmaqla hesablanır.

Mülkiyyətində olan torpaq sahələrinin təqdim edilməsini həyata keçirən şəxslər üçün sadələşdirilmiş vergi sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar, yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqların hər kvadratmetri üçün 0,5 manat olmaqla, bu paraqraf ilə müəyyən edilmiş qaydada hesablanır. Kənd təsərrüfatı təyinatlı torpaqlara görə sadələşdirilmiş vergi hesablanarkən bu paraqraf ilə müəyyən olunmuş torpaq sahəsinin yerləşdiyi ərazi üzrə zona əmsalları tətbiq olunmur.

Yaşayış fondlarının, həyətyanı sahələrin torpaqlarının və vətəndaşların bağ sahələrinin tutduğu torpaqların satışı zamanı vergi aşağıdakı qaydada hesablanır:

**VM = S x ZƏ x 0,5 manat**

VM - ödəniləcək verginin məbləği

S - torpağın sahəsi ($m^2$-lə)

ZƏ – yerləşdiyi zonadan asılı olaraq əmsallar

0,5 manat - torpaq sahələrinin hər kvadrat metri üçün baza məbləği.

Misal: Fiziki şəxsin mülkiyyətində 6-cı zonada sahəsi 300 $m^2$ olan və yaşayış üçün nəzərdə tutulan torpaq sahəsi vardır. Həmin torpaq təqdim edildiyi zaman sadələşdirilmiş vergi məbləği aşağıdakı kimi hesablanır:

300 $m^2$ x 1,8 x 0,5 manat = 270 manat

Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaq sahələrinin təqdim edilməsi zamanı verginin məbləği əlavə olaraq yüksəldici əmsallar tətbiq edilməklə hesablanır:

**VM = S x ZƏ x 0,5 manat x YƏ**

VM - ödəniləcək verginin məbləği

S - torpağın sahəsi ($m^2$-lə)

ZƏ – yerləşdiyi zonadan asılı olaraq əmsal

0,5 manat - torpaq sahələrinin hər kvadrat metri üçün baza məbləği

YƏ – yüksəldici əmsallar.

Misal 3: Hüquqi şəxsin mülkiyyətində Gəncə şəhərində sahəsi 1000 $m^2$ olan sənaye təyinatlı torpaq sahəsi var. Həmin torpaq sahəsi təqdim edildiyi zaman sadələşdirilmiş vergi məbləği aşağıdakı kimi hesablanır:

1000 $m^2$ x 0,5 manat x 1,5 x 1,3 = 975 manat

Mülkiyyətində olan torpaq sahələrinin təqdim edilməsini həyata keçirən şəxslər üçün kənd təsərrüfatı təyinatlı torpaqlar üzrə sadələşdirilmiş vergi hər şərti bal üçün 0,06 manat dərəcəsi ilə hesablanmış torpaq vergisinin 2 misli məbləğində hesablanır.

**VM = (S x ŞB x 0,06 manat) x 2**

VM – ödəniləcək verginin məbləği

S – torpağın sahəsi (hektarla)

ŞB - kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla 1 hektarı üçün müəyyən olunan şərti bal (Nazirlər Kabineti tərəfindən müəyyən edilir)

0,06 manat - kənd təsərrüfatı torpaqların 1 şərti balının torpaq vergisi dərəcəsi

2 – hesablanmış torpaq vergisinı tətbiq edilən əmsal.

Misal 1: Fiziki şəxs Lənkəran rayonunda I kateqoriyaya aid olan 3 hektar düzən torpaq sahəsini satır (şərti bal - 125). Həmin torpaq sahəsinin satışı zamanı sadələşdirilmiş vergi məbləği aşağıdakı kimi hesablanır:

3 hektar x 125 x 0,06 x 2 = 45 manat

Bina və torpaq sahəsi Bakı şəhəri, habelə onun qəsəbə və kəndlərində yerləşdikdə, müəyyən olunmuş sadələşdirilmiş vergi məbləğinə Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş zonalardan asılı olaraq, aşağıdakı əmsallar tətbiq olunur:

| | *Yaşayış və qeyri-yaşayış sahələrinin və torpağın yerləşdiyi ərazi üzrə əmsal* |
|---|---|
| ***1*** | *4,0* |
| ***2*** | *3,0* |
| ***3,4*** | *2,2* |
| ***5,6*** | *1,8* |
| ***7,8,9*** | *1,5* |
| ***10,11,12*** | *1,2* |

Bakı şəhəri, habelə onun qəsəbə və kəndləri üzrə zonaların sərhədləri aşağıdakı kimi müəyyən edilir:

Zona 1.

Sərhədləri:

Əl Oyunları Stadionundan başlayaraq, şimal-şərq istiqamətində Mikayıl Hüseynov prospekti üzrə Azneft meydanına qədər, Azneft meydanından Niyazi küçəsi üzrə İstiqlaliyyət küçəsi ilə kəsişənədək, İstiqlaliyyət küçəsi üzrə Hüsü Hacıyev küçəsi ilə kəsişənədək, Hüsü Hacıyev küçəsi üzrə Nizami küçəsi ilə kəsişənədək, Nizami küçəsi üzrə şərq istiqamətində Rixard Zorge küçəsi ilə kəsişənədək, Rixard Zorge küçəsi üzrə cənub istiqamətində küçənin dənizin sahil xətti ilə kəsişməsinədək, sahil xətti üzrə qərb istiqamətində Əl Oyunları stadionunadək.

Zona 2.

Sərhədləri:

Hüsü Hacıyev küçəsinin Nizami küçəsi ilə kəsişməsindən başlayaraq, şimal istiqamətində Hüsü Hacıyev küçəsi üzrə Füzuli küçəsi ilə kəsişənədək, Füzuli küçəsi üzrə Rəşid Behbudov küçəsi ilə kəsişənədək, Rəşid Behbudov küçəsi üzrə şimal istiqamətində Süleyman Rəhimov küçəsi ilə kəsişənədək, Süleyman Rəhimov küçəsi üzrə şərq istiqamətində Xətai prospekti ilə kəsişənədək, bu kəsişmə yerindən metronun “28 May” stansiyası və Dəmir Yolu Vağzalı daxil olmaqla, Puşkin küçəsi üzrə Nizami küçəsi ilə kəsişənədək, Nizami küçəsi üzrə qərb istiqamətində küçənin Hüsü Hacıyev küçəsi ilə kəsişdiyi yerədək.

Zona 3.

Sərhədləri:

Şəhidlər Xiyabanından başlayaraq, şimal istiqamətində Mehdi Hüseyn küçəsi üzrə Nəriman Nərimanov prospektinədək, Nəriman Nərimanov prospekti üzrə İnşaatçılar prospekti ilə kəsişənədək, İnşaatçılar prospekti üzrə İzmir küçəsi ilə kəsişənədək, İzmir küçəsi üzrə Tbilisi prospekti ilə kəsişənədək, Tbilisi prospekti üzrə cənub istiqamətində Bakıxanov küçəsi ilə kəsişənədək, Bakıxanov küçəsi üzrə şərq istiqamətində Azadlıq prospekti ilə kəsişənədək, Azadlıq prospekti üzrə şimal istiqamətində akademik Həsən Əliyev küçəsi ilə kəsişənədək, akademik Həsən Əliyev küçəsi üzrə şərq istiqamətində Aşıq Molla küçəsi ilə kəsişənədək, Aşıq Molla küçəsi üzrə cənub istiqamətində Fətəli xan Xoyski prospekti ilə kəsişənədək, Fətəli xan Xoyski prospekti üzrə şərq istiqamətində Əhməd Rəcəbli küçəsi ilə kəsişənədək, Əhməd Rəcəbli küçəsi üzrə şimal istiqamətində Yusif Vəzir Çəmənzəminli küçəsi ilə kəsişənədək, Yusif Vəzir Çəmənzəminli küçəsi üzrə Ağa Nemətulla küçəsi ilə kəsişənədək, Ağa Nemətulla küçəsi üzrə cənub istiqamətində Heydər Əliyev prospekti ilə kəsişənədək, Heydər Əliyev prospekti üzrə qərb istiqamətində Babək prospekti ilə kəsişənədək, Babək prospekti üzrə şərq istiqamətində Nəcəfqulu Rəfiyev küçəsi ilə kəsişənədək, Nəcəfqulu Rəfiyev küçəsi üzrə cənub istiqamətində Süleyman Vəzirov küçəsi ilə kəsişənədək, Süleyman Vəzirov küçəsi üzrə şərq istiqamətində Xaqani Rüstəmov küçəsi ilə kəsişənədək, Xaqani Rüstəmov küçəsi üzrə cənub istiqamətində Dənizkənarı küçəni kəsərək keçən düz xəttin dənizin sahil xətti ilə kəsişməsinədək, dənizin sahil xətti üzrə qərb istiqamətində Rixard Zorge küçəsi ilə kəsişənədək, Rixard Zorge küçəsi üzrə şimal istiqamətində Nizami küçəsi ilə kəsişənədək, Nizami küçəsi üzrə qərb istiqamətində Puşkin küçəsi ilə kəsişənədək, Puşkin küçəsi üzrə şimal istiqamətində Dəmir Yolu Vağzalının şərq tərəfindən keçərək Süleyman Rəhimov küçəsi ilə kəsişənədək, Süleyman Rəhimov küçəsi üzrə qərb istiqamətində Rəşid Behbudov küçəsi ilə kəsişənədək, Rəşid Behbudov küçəsi üzrə cənub istiqamətində Füzuli küçəsi ilə kəsişənədək, Füzuli küçəsi üzrə qərb istiqamətində Hüsü Hacıyev küçəsi ilə kəsişənədək, Hüsü Hacıyev küçəsi üzrə cənub istiqamətində İstiqlaliyyət küçəsi ilə kəsişənədək, İstiqlaliyyət küçəsi üzrə qərb istiqamətində Niyazi küçəsi ilə kəsişənədək, Niyazi küçəsi üzrə cənub istiqamətində Mikayıl Hüseynov prospekti ilə kəsişənədək, Mikayıl Hüseynov prospekti üzrə qərb istiqamətində Əl Oyunları stadionunadək, Əl Oyunları stadionundan Gülüstan sarayının yanından keçən xətlə Şəhidlər Xiyabanınadək.

Zona 4.

Sərhədləri:

Şəhidlər Xiyabanından başlayaraq, Azərbaycan Respublikasının Milli Məclisi və hərbi hissənin stadionu daxil olmaqla, şimal istiqamətində Yasamal rayonunun inzibati sərhədi üzrə Mətbuat prospekti ilə kəsişənədək, Mətbuat və Həsən bəy Zərdabi prospektləri üzrə şimal istiqamətində Akim Abbasov küçəsi ilə kəsişənədək, Akim Abbasov küçəsi üzrə şərq istiqamətində Azad Mirzəyev küçəsi ilə kəsişənədək, Azad Mirzəyev küçəsi üzrə cənub istiqamətində İnşaatçılar və Nəriman Nərimanov prospektləri kəsişənədək, Nəriman Nərimanov prospekti üzrə cənub istiqamətində Mehdi Hüseyn küçəsi ilə kəsişənədək, Mehdi Hüseyn küçəsi üzrə cənub istiqamətində Şəhidlər Xiyabanınadək.

Zona 5.

Sərhədləri:

Metronun “20 Yanvar” stansiyasından başlayaraq, cənub istiqamətində Tbilisi prospekti üzrə İzmir küçəsi ilə kəsişənədək, İzmir küçəsi üzrə cənub istiqamətində İnşaatçılar prospekti ilə kəsişənədək, İnşaatçılar prospekti üzrə cənub istiqamətində Azad Mirzəyev küçəsi ilə kəsişənədək, Azad Mirzəyev küçəsi üzrə şimal istiqamətində Akim Abbasov küçəsi ilə kəsişənədək, Akim Abbasov küçəsi üzrə qərb istiqamətində Həsən bəy Zərdabi prospekti ilə kəsişənədək, Həsən bəy Zərdabi və Mətbuat prospektləri üzrə cənub istiqamətində Abbas mirzə Şərifzadə küçəsi ilə kəsişənədək, Abbas mirzə Şərifzadə küçəsi üzrə şimal istiqamətində Müzəffər Həsənov küçəsi ilə kəsişənədək, Müzəffər Həsənov küçəsi üzrə qərb istiqamətində Ülvi Bünyadzadə küçəsi ilə kəsişənədək, Ülvi Bünyadzadə küçəsi üzrə şimal-şərq istiqamətində Moskva prospekti ilə kəsişənədək, Moskva prospekti üzrə cənub istiqamətində metronun “20 Yanvar” stansiyasınadək.

Zona 6.

Zona 6.1.

Sərhədləri:

İzmir küçəsinin Tbilisi prospekti ilə kəsişməsindən başlayaraq, Tbilisi prospekti üzrə cənub istiqamətində Bakıxanov küçəsi ilə kəsişənədək, Bakıxanov küçəsi üzrə şərq istiqamətində Azadlıq prospekti ilə kəsişənədək, Azadlıq prospekti üzrə şimal istiqamətində akademik Həsən Əliyev küçəsi ilə kəsişənədək, akademik Həsən Əliyev küçəsi üzrə şərq istiqamətində Aşıq Molla küçəsi ilə kəsişənədək, Aşıq Molla küçəsi üzrə cənub istiqamətində Fətəli xan Xoyski prospekti ilə kəsişənədək, Fətəli xan Xoyski prospekti üzrə şərq istiqamətində Əhməd Rəcəbli küçəsi ilə kəsişənədək, Əhməd Rəcəbli küçəsi üzrə şimal istiqamətində Ziya Bünyadov prospekti ilə kəsişənədək, Ziya Bünyadov prospekti üzrə qərb istiqamətində Rəşid Məmmədov küçəsi ilə kəsişənədək, Rəşid Məmmədov küçəsi üzrə şimal istiqamətində Hüseyn Seyidzadə küçəsi ilə kəsişənədək, Hüseyn Seyidzadə küçəsi üzrə şimal istiqamətində 20 Yanvar küçəsi ilə kəsişənədək, 20 Yanvar küçəsi üzrə qərb istiqamətində Moskva prospekti ilə kəsişənədək.

Zona 6.2.

Sərhədləri:

2-ci köndələn küçəsinin Heydər Əliyev prospekti ilə kəsişməsindən başlayaraq, şərq istiqamətində Nizami rayonunun inzibati sərhədi boyunca metronun “Koroğlu” stansiyasınadək, metronun “Koroğlu” stansiyasından başlayaraq, cənub istiqamətində Qara Qarayev prospekti üzrə Bəhruz Nuriyev küçəsi ilə kəsişənədək, Naxçıvanski küçəsi ilə kəsişənədək, Naxçıvanski küçəsi üzrə şərq istiqamətində Elşən Süleymanov küçəsi ilə kəsişənədək, Elşən Süleymanov küçəsi üzrə cənub istiqamətində Babək prospekti ilə kəsişənədək, Babək prospekti üzrə qərb istiqamətində Bəkir Çobanzadə küçəsi ilə kəsişənədək, Bəkir Çobanzadə küçəsi üzrə şimal istiqamətində Rüstəm Rüstəmov küçəsi ilə kəsişənədək, Rüstəm Rüstəmov küçəsi üzrə qərb istiqamətində Mikayıl Əliyev küçəsi ilə kəsişənədək, Mikayıl Əliyev küçəsi üzrə şimal istiqamətində dəmiryol xətti ilə kəsişənədək, dəmiryol xətti üzrə qərb istiqamətində 9-cu köndələn küçəsi ilə kəsişənədək, 9-cu köndələn küçəsi üzrə Pəhlivan Fərzəliyev küçəsi ilə kəsişənədək, qərb istiqamətində Pəhlivan Fərzəliyev küçəsi üzrə 2-ci köndələn küçəsi ilə kəsişənədək, 2-ci köndələn küçəsi üzrə bu küçənin Heydər Əliyev prospekti ilə kəsişdiyi yerədək.

Zona 6.3.

Sərhədləri:

Əl Oyunları stadionundan başlayaraq, şimal-şərq istiqamətində 3-cü zonanın sərhədi üzrə Gülüstan sarayının yanından keçən xətlə Şəhidlər Xiyabanınadək, Şəhidlər Xiyabanından şimal istiqamətində 4-cü zonanın Azərbaycan Respublikası Milli Məclisinin və hərbi hissənin stadionunun yanından keçən sərhədi ilə Səbail rayonunun inzibati sərhədinin Mətbuat prospekti və Mikayıl Müşfiq küçəsi ilə kəsişənədək, bu kəsişmə yerindən qərb istiqamətində Səbail rayonunun inzibati sərhədi üzrə cənub-qərb istiqamətində davam edir və bu rayonun digər zonalarla əhatə olunmayan ərazisini əhatə edir.

Zona 6.4.

Sərhədləri:

Heydər Əliyev Beynəlxalq Aeroportunun və aeroport yarmarkasının yerləşdiyi ərazi.

Zona 7.

Sərhədləri:

Metronun “20 Yanvar” stansiyasından başlayaraq, şimal istiqamətində Moskva prospekti üzrə 20 Yanvar küçəsi ilə kəsişənədək, 20 Yanvar küçəsi üzrə şərq istiqamətində Hüseyn Seyidzadə küçəsi ilə kəsişənədək, Hüseyn Seyidzadə küçəsi üzrə şərq istiqamətində Rəşid Məmmədov küçəsi ilə kəsişənədək, Rəşid Məmmədov küçəsi üzrə cənub istiqamətində Ziya Bünyadov prospekti ilə kəsişənədək, Ziya Bünyadov prospekti üzrə şərq istiqamətində Əhməd Rəcəbli küçəsi ilə kəsişənədək, Əhməd Rəcəbli küçəsi üzrə cənub istiqamətində Yusif Vəzir Çəmənzəminli küçəsi ilə kəsişənədək, Yusif Vəzir Çəmənzəminli küçəsi üzrə şərq istiqamətində Ağa Nemətulla küçəsi ilə kəsişənədək, Ağa Nemətulla küçəsi üzrə cənub istiqamətində Heydər Əliyev prospekti ilə kəsişənədək, Heydər Əliyev prospekti üzrə qərb istiqamətində Babək prospekti ilə kəsişənədək, Babək prospekti üzrə şərq istiqamətində Bəkir Çobanzadə küçəsi ilə kəsişənədək, Bəkir Çobanzadə küçəsi üzrə şimal istiqamətində Rüstəm Rüstəmov küçəsi ilə kəsişənədək, Rüstəm Rüstəmov küçəsi üzrə qərb istiqamətində Mikayıl Əliyev küçəsi ilə kəsişənədək, Mikayıl Əliyev küçəsi üzrə şimal istiqamətində dəmiryol xətti ilə kəsişənədək, dəmiryol xətti üzrə qərb istiqamətində 9-cu köndələn küçəsi ilə kəsişənədək, 9-cu köndələn küçəsi üzrə Pəhlivan Fərzəliyev küçəsi ilə kəsişənədək, qərb istiqamətində Pəhlivan Fərzəliyev küçəsi üzrə 2-ci köndələn küçəsi ilə kəsişənədək, 2-ci köndələn küçəsi üzrə şimal istiqamətində Nərimanov rayonunun sərhədi ilə kəsişənədək, Nərimanov rayonunun sərhədi üzrə şərq istiqamətində Böyük Şor gölünün sahil xətti ilə kəsişənədək, Böyük Şor gölünün sahil xətti üzrə qərb istiqamətində Nərimanov, Binəqədi rayonlarının sərhədləri kəsişənədək davam edir və Binəqədi, Nəsimi rayonlarının digər zonalarla əhatə olunmayan ərazilərini əhatə edir.

Zona 8.

Sərhədləri:

Dənizin sahil xəttindən başlayan və şimal istiqamətində Xaqani Rüstəmov küçəsi boyunca keçən düz xəttin Süleyman Vəzirov küçəsi ilə kəsişməsinədək, Süleyman Vəzirov küçəsi üzrə qərb istiqamətində Nəcəfqulu Rəfiyev küçəsi ilə kəsişənədək, Nəcəfqulu Rəfiyev küçəsi üzrə şimal istiqamətində Babək prospekti ilə kəsişənədək, Babək prospekti üzrə şərq istiqamətində Elşən Süleymanov küçəsi ilə kəsişənədək, Elşən Süleymanov küçəsi üzrə şimal istiqamətində Naxçıvanski küçəsi ilə kəsişənədək, Naxçıvanski küçəsi üzrə qərb istiqamətində Qara Qarayev prospekti ilə kəsişənədək, Qara Qarayev prospekti üzrə şimal istiqamətində Böyük Şor küçəsi ilə kəsişənədək, Böyük Şor küçəsi üzrə şimal istiqamətində Nərimanov rayonunun sərhədi ilə kəsişənədək, Nərimanov rayonunun sərhədi üzrə şimal istiqamətində Böyük Şor gölünün sahilinədək, Böyük Şor gölünün sahili üzrə şərq istiqamətində Böyük Şor şosesi ilə kəsişənədək, Böyük Şor şosesi üzrə şimal istiqamətində Sabunçu dairəsinədək, Sabunçu dairəsindən şəhər şosesi üzrə şimal istiqamətində Sabunçu qəsəbəsinin şimal sərhədi boyunca şərqə doğru Suraxanı rayonunun sərhədi ilə

kəsişənədək, bu kəsişmə yerindən Suraxanı rayonunun sərhədi üzrə cənub istiqamətində sərhədin Məmmədhəsən Hacınski küçəsi ilə kəsişməsinədək, Məmmədhəsən Hacınski küçəsinin Nizami İsmayılov küçəsi ilə kəsişənədək, Nizami İsmayılov küçəsi üzrə qərb istiqamətində Əhməd Möhbalıyev prospekti ilə kəsişənədək, Əhməd Möhbalıyev prospekti üzrə cənub istiqamətində Xətai rayonunun sərhədi ilə kəsişənədək, bu kəsişmə yerindən Xətai rayonunun sərhədi üzrə cənub istiqamətində davam edərək, bu rayonun digər zonalarla əhatə olunmayan ərazisini əhatə edir.

Zona 9.

Zona 9.1.

Sərhədləri:

Babək prospektinin 3-cü dairəvi küçə ilə kəsişdiyi yerdən başlayaraq, dəmiryol xətti üzrə cənub istiqamətində Aşıq Ələsgər küçəsinədək, Aşıq Ələsgər küçəsi üzrə şərq istiqamətində Məhəmməd Hadi küçəsi ilə kəsişənədək, Məhəmməd Hadi küçəsi üzrə şimal istiqamətində Babək prospekti ilə kəsişənədək, Babək prospekti üzrə qərb istiqamətində prospektin 3-cü dairəvi küçə ilə kəsişməsinədək.

Zona 9.2.

Sərhədləri:

Suraxanı rayonunun Əmircan və Bülbülə qəsəbələri və bu rayonun digər zonalarla əhatə olunmayan əraziləri.

Zona 10.

Zona 10.1.

Sərhədləri:

Yasamal rayonunun digər zonalarla əhatə olunmayan hissəsi.

Zona 10.2.

Sərhədləri:

Zuğulba, Buzovna, Mərdəkan, Şüvəlan, Lökbatan, Hövsan, Binə, Maştağa, Nardaran qəsəbələri.

Zona 10.3.

Sərhədləri:

Binəqədi rayonunun Binəqədi qəsəbəsinin cənub sərhədi üzrə şərqdən qərbə doğru keçən xəttin şimalında yerləşən və digər zonalarda göstərilməyən ərazisi.

Zona 10.4.

Sərhədləri:

Pirallahı rayonunun ərazisi.

Zona 11.

Sərhədləri:

Zığ, Sahil, Ramana, Zabrat qəsəbələri.

Zona 12.

Sərhədləri:

Qaradağ, Xəzər və Sabunçu rayonlarının digər zonalarla əhatə olunmayan əraziləri.

Bina və ya torpaq sahəsi Gəncə, Sumqayıt və Xırdalan şəhərlərində yerləşdikdə, müəyyən olunmuş sadələşdirilmiş vergi məbləğinə - *1,5*;

Abşeron rayonunun qəsəbə və kəndləri (Xırdalan şəhəri istisna olmaqla), Şirvan, Mingəçevir, Naxçıvan, Lənkəran, Yevlax, Şəki və Naftalan şəhərlərində yerləşdikdə, müəyyən olunmuş sadələşdirilmiş vergi məbləğinə - *1,2*;

digər rayon (şəhər) və qəsəbələrdə (kəndlərdə) yerləşdikdə, müəyyən olunmuş sadələşdirilmiş vergi məbləğinə - *0,5*.

VM-nin 218.4.3-cü maddəsində göstərilən şəxslər üçün binaların qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə sadələşdirilmiş vergi VM-nin 220.8-ci maddəsi ilə hesablanmış məbləğə *1,5* əmsal tətbiq edilməklə hesablanır.

Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqları təqdim edən şəxslər üçün sadələşdirilmiş vergi yuxarıda hesablanmış məbləğə əlavə olaraq Bakı şəhəri, habelə onun qəsəbə və kəndlərində 1,5 əmsal, Gəncə, Sumqayıt, Xırdalan şəhərlərində 1,3 əmsal, Abşeron rayonunun qəsəbə və kəndləri, Şirvan, Mingəçevir, Naxçıvan, Lənkəran, Yevlax, Şəki və Naftalan şəhərlərində 1,2 əmsal və digər rayon (şəhər) və qəsəbələrdə (kəndlərdə) 1,1 əmsal tətbiq edilməklə hesablanır.

İdman mərc oyunlarının operatoru tərəfindən oyun iştirakçılarından qəbul edilmiş vəsaitdən 6 faiz dərəcəsi ilə, idman oyunları ilə əlaqədar aparılan mərc oyunlarının satıcısı tərəfindən isə operatorun ona verdiyi komisyon haqdan 4 faiz dərəcəsi ilə sadələşdirilmiş vergi hesablanır.

Aşağıda nəzərdə tutulan fəaliyyət növləri ilə fərdi qaydada (muzdlu işçi cəlb etmədən) məşğul olan fiziki şəxslər üçün sadələşdirilmiş vergi aşağıdakı kimi müəyyən edilir:

| **Fəaliyyət növünün adı** | **Sadələşdirilmiş vergi üzrə aylıq sabit məbləğ (manatla)** |
|---|---|
| *Toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət* | 20 |
| *Fərdi foto, audio-video xidmətləri (foto studiyalar istisna olmaqla) sahəsində fəaliyyət* | 15 |
| *Çəkməçi, pinəçi* | 5 |
| *Saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri* | 10 |
| *Fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu, xəstələrə, qocalara və uşaqlara qulluq xidməti, dayə, fərdi sürücülük, ev təsərrüfatında təmizlik, bağban, aşbaz, gözətçi və iaşə obyektlərində müştərilərə xidmət göstərən fiziki şəxslər (ofisiant)* | 10 |
| *Nəqqaşlıq emalatxanalarının fəaliyyəti* | 20 |
| *Fərdi qaydada bərbər fəaliyyəti ilə məşğul olan şəxslər* | 15 |
| *Fərdi qaydada dərzi fəaliyyəti ilə məşğul olan şəxslər* | 10 |

Yuxarıda göstərilən fəaliyyət növləri ilə məşğul olan fiziki şəxslər üçün aylıq verginin məbləği aşağıdakı əmsallar tətbiq edilməklə müəyyən edilir:

Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) – 2,0;

Gəncə, Sumqayıt və Xırdalan şəhərlərində – 1,5;

Abşeron rayonunun qəsəbə və kəndləri (Xırdalan şəhəri istisna olmaqla), Şirvan, Mingəçevir, Naxçıvan, Lənkəran, Yevlax, Şəki və Naftalan şəhərlərində - 1,0;

digər rayon (şəhər) və qəsəbələrdə (kəndlərdə) – 0,5;

Hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə *1 faiz dərəcəsi ilə* sadələşdirilmiş vergi hesablanır.

### 3.5 Sadələşdirilmiş verginin hesablanması qaydası, ödəmə müddəti və bəyannamənin verilməsi

Hesabat dövrü üçün sadələşdirilmiş verginin məbləği (Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını həyata keçirən şəxslər, idman oyunları ilə əlaqədar aparılan mərc oyunlarının operatoru və satıcıları olan şəxslər və mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsini həyata keçirən şəxslər istisna olmaqla) 2%, və 8% kimi müəyyən edilmiş vergi dərəcəsini hesabat dövrünün ümumi hasilatının həcminə tətbiq etməklə hesablanır.

Sadələşdirilmiş vergi üçün hesabat dövrü *rübdür*.

Sadələşdirilmiş verginin ödəyiciləri *hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq* ödənilməli olan verginin məbləği haqqında vergi orqanlarına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyirlər.

Vergi ödəyicisi fəaliyyətini dayandırdıqda, habelə vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildikdə və ya fərdi sahibkarın fəaliyyətinə xitam verildikdə, Vergi Məcəlləsində müəyyən olunmuş müddətdən gec olmamaq şərtilə vergi orqanına bəyannamə təqdim edilməlidir. Bu zaman vergi dövrü hesabat dövrü sayılan müddətin əvvəlindən vergi ödəyicisi fəaliyyətini dayandırdığı, habelə vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildiyi və ya fərdi sahibkarın fəaliyyətinə xitam verildiyi günə qədər olan dövrü əhatə edir.

İdman oyunları ilə əlaqədar aparılan mərc oyunlarının operatoru və satıcıları olan şəxslər hesabat rübü üçün sadələşdirilmiş vergini idman oyunları ilə əlaqədar aparılan mərc oyunlarının operatoru tərəfindən oyun iştirakçılarından qəbul edilmiş vəsaitdən 6 faiz dərəcəsi ilə, idman oyunları ilə əlaqədar aparılan mərc oyunlarının satıcısı tərəfindən isə operatorun ona verdiyi komisyon haqdan 4 faiz dərəcəsi ilə hesablayır və həmin rübdən sonrakı ayın 20-dən gec olmayaraq Vergilər Nazirliyinin müəyyən etdiyi forma üzrə vergi orqanına bəyannamə təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə sadələşdirilmiş vergi aşağıdakı qaydada hesablanır:

- Sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyicisinin hər bir avtomobil nəqliyyatı vasitəsi üçün sadələşdirilmiş vergi sadələşdirilmiş verginin tətbiq edildiyi ölçü vahidini sadələşdirilmiş verginin aylıq məbləğinə, habelə ərazi üzrə əmsallara vurularaq hesablanır və dövlət büdcəsinə ödənilir.

- Sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri avtomobil nəqliyyatı vasitələrinin qeydiyyata alındığı yerdən asılı olmayaraq, sərnişin və yük daşımalarının faktiki həyata keçirildiyi ərazi üçün müəyyən edilən sadələşdirilmiş vergini ödəyirlər.

- Vəkalətnamə (etibarnamə) və ya icarə və ya digər əşya hüquqlarına dair müqavilə əsasında istifadə edilən avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımaları həyata keçirildikdə, sadələşdirilmiş verginin ödənilməsinə nəqliyyat vasitəsini vəkalətnamə (etibarnamə) və ya icarə və ya digər əşya hüquqlarına dair müqavilə ilə idarə edən şəxslər məsuliyyət daşıyırlar. Bütün digər hallarda sadələşdirilmiş verginin ödənilməsinə avtomobil nəqliyyatı vasitəsinin sahibi məsuliyyət daşıyır.

- Hüquqi şəxsin balansında olan avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımaları hüquqi şəxsin özü tərəfindən həyata keçirildikdə, sadələşdirilmiş vergini həmin hüquqi şəxs ödəyir.

- Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri Vergi Məcəlləsində başqa hallar nəzərdə tutulmamışdırsa, bu fəaliyyətə görə vergi orqanlarına bəyannamə vermirlər.

- Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri tərəfindən sadələşdirilmiş verginin düzgün hesablanmasına və vaxtında dövlət büdcəsinə ödənilməsinə Vergilər Nazirliyi nəzarət edir.

- Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər hər bir avtomobil nəqliyyatı vasitəsi üçün Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən (Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşınmanı və taksi minik avtomobilləri ilə sərnişindaşınmanı həyata keçirən şəxslər isə AR Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyindən) təqvim ayının sonunadək növbəti ay (aylar) öz istəklərinə uyğun olaraq növbəti ay, rüb, yarım il və ya il üçün ciddi hesabat blankı olan *«Fərqlənmə nişanı»* almalıdırlar. «Fərqlənmə nişanı» vergi ödəyicisinin nəqliyyat siyasətini həyata keçirən Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən təsdiq edilmiş formada ərizəsinə əsasən *iki iş günündən gec olmayaraq* verilir.

"Fərqlənmə nişanı" almaq üçün vergi ödəyicisinin ərizəsinə həmin fəaliyyət üçün sadələşdirilmiş verginin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsini təsdiq edən bank ödəniş sənədi əlavə edilməlidir. Bank ödəniş sənədində avtomobil nəqliyyatı vasitəsinin dövlət qeydiyyat nişanının seriya və nömrəsi aydın göstərilməlidir.

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər hesablanmış vergini və məcburi dövlət sosial sığorta haqqını tam məbləğdə dövlət büdcəsinə ödədikdən sonra onlara "Fərqlənmə nişanı" verilir. Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər tərəfindən ödənilmiş vergi və məcburi dövlət sosial sığorta haqqı onların həmin ayda fəaliyyət göstərib-göstərməməsindən asılı olmayaraq geri qaytarılmır və növbəti ayın vergiləri ilə əvəzləşdirilmir.

Avtonəqliyyat vasitəsinin sahibi və ya istifadəçisi dəyişdikdə həmin nəqliyyat vasitəsinə sonrakı aylar üçün əvvəlki sahib və ya istifadəçi tərəfindən qabaqcadan ödənilmiş vergilər və məcburi dövlət sosial sığorta haqqı nəzərə alınır və verginin və məcburi dövlət sosial sığorta haqqının ödənildiyini təsdiq edən "Fərqlənmə nişanı"nın yenidən rəsmiləşdirilməsi tələb olunmur.

- «Fərqlənmə nişanı»nın və Vergi Məcəlləsinin 221.4.9-cu maddəsində göstərilən «Xüsusi fərqlənmə nişanı»nın formaları Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən müəyyən edilir və aşağıdakı məlumatları özündə əks etdirirlər:

a) vergi ödəyicisi olan hüquqi şəxsin tam adı və ya fiziki şəxsin adı, atasının adı, soyadı;

b) vergi ödəyicisinin VÖEN-i;

c) nişanın qüvvədə olma müddəti;

d) avtonəqliyyat vasitəsinin markası və dövlət qeydiyyatı nişanı;

e) avtomobil nəqliyyatı vasitələrində oturacaq yerlərinin sayı və ya yükgötürmə qabiliyyəti;

f) daşımanın həyata keçirildiyi ərazi;

g) ödənilmiş verginin məbləği.

- Vergi ödəyicilərinin mülkiyyətində olan avtomobil nəqliyyatı vasitələri ilə öz istehsal fəaliyyətini təmin etmək üçün işçilərinin və özünə məxsus yüklərin daşınmasında istifadə olunan avtomobil nəqliyyat vasitələri sadələşdirilmiş vergiyə cəlb edilmir və bu nəqliyyat vasitələri üçün *«Xüsusi fərqlənmə nişanı»* alınır.

«Xüsusi fərqlənmə nişanı» mülkiyyətində avtomobil nəqliyyatı vasitələri olan vergi ödəyicilərinin müraciətindən sonra beş iş günü ərzində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən verilir. «Xüsusi fərqlənmə nişanı»nın alınması üçün hər hansı haqq ödənilmir.

«Xüsusi fərqlənmə nişanı» almış vergi ödəyiciləri avtomobil nəqliyyatı vasitələrini satarkən və ya icarəyə verərkən, habelə bu maddədə nəzərdə tutulmayan digər məqsədlər üçün istifadə edərkən, ən azı bir iş günü əvvəl «Xüsusi fərqlənmə nişanı»nı onu vermiş orqana geri qaytarmalıdır.

- Vergi ödəyicisinin işçi heyətinin və özünə məxsus yüklərin daşınmasında istifadə edilən yeni avtomobil nəqliyyatı vasitələri müvafiq qaydada qeydiyyata alındıqdan sonra həmin avtomobil nəqliyyatı vasitələrinin sahibləri beş gün ərzində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə bu barədə Vergilər Nazirliyi tərəfindən təsdiq edilmiş formada məlumat təqdim edirlər.

**«Fərqlənmə nişanı» və ya «Xüsusi fərqlənmə nişanı» alınmayan avtonəqliyyat vasitələri**

- xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı avtonəqliyyat vasitələri
- dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının avtonəqliyyat vasitələri
- Azərbaycan Respublikası Mərkəzi Bankının avtonəqliyyat vasitələri
- hasilatın pay bölgüsü, əsas ixrac boru kəməri haqqında və bu qəbildən olan digər sazişlər çərçivəsində fəaliyyət göstərən xarici podratçıların və subpodratçıların avtonəqliyyat vasitələri
- dövlət fondlarının avtonəqliyyat vasitələri
- xarici ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinin, beynəlxalq təşkilatların nümayəndəliklərinin rəsmi istifadəsi üçün nəzərdə tutulan avtonəqliyyat vasitələri

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşınmanı və taksi minik avtomobilləri ilə sərnişindaşınmanı həyata keçirən şəxslərə münasibətdə isə AR Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyi) növbəti ayın 10-dək əvvəlki ay ərzində verilmiş nişanlar barədə Vergilər Nazirliyinə məlumat verir.

Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) həyata keçirən şəxslər, idman oyunları ilə əlaqədar aparılan mərc oyunlarının operatoru və satıcıları olan şəxslər və mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsini həyata keçirən şəxslər digər fəaliyyət növü üzrə əldə etdikləri gəlirlərin və xərclərin uçotunu hər bir fəaliyyət növü üzrə ayrılıqda aparırlar. Həmin şəxslərin bu fəaliyyət növləri üzrə mənfəəti (zərəri) digər fəaliyyət növündən əldə edilmiş mənfəətə (zərərə) aid edilmir.

Əmlakın icarəyə verilməsindən və royaltidən gəlir əldə edən şəxslər bu fəaliyyətlə yanaşı, digər fəaliyyət növləri ilə məşğul olduqda, Vergi Məcəlləsinin 218.1-ci və 218.2-ci maddələrinin müddəaları nəzərə alınmaqla, digər fəaliyyətdən əldə etdiyi gəlirlərə sadələşdirilmiş vergini tətbiq etmək hüququna malikdirlər. Bu halda əmlakın icarəyə verilməsi, royalti və digər fəaliyyət növləri üzrə əldə edilən gəlirlərin və xərclərin uçotu hər bir fəaliyyət növü üzrə ayrılıqda aparılır. İcbari sığorta müqavilələri üzrə xidmət göstərən sığorta

agentləri bu fəaliyyətlə yanaşı digər fəaliyyət növləri ilə də məşğul olduqda, həmin müqavilələr üzrə ümumi hasilata sadələşdirilmiş vergini tətbiq etmək hüququna malikdirlər.

Toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət, fərdi foto, audio-video xidmətləri (foto studiyalar istisna olmaqla) sahəsində fəaliyyət, çəkməçi, pinəçi, saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri, fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu, xəstələrə, qocalara və uşaqlara qulluq xidməti, dayə, fərdi sürücülük, ev təsərrüfatında təmizlik, bağban, aşbaz, gözətçi və digər analoji işlər, nəqqaşlıq emalatxanalarının fəaliyyəti, fərdi qaydada bərbər və dərzi fəaliyyəti ilə məşğul olan şəxslər üçün sadələşdirilmiş vergi aşağıdakı qaydada hesablanır:

Həmin fiziki şəxslər sadələşdirilmiş vergini sabit vergi məbləğinin əmsallara vurulması yolu ilə hesablayır və dövlət büdcəsinə ödəyir.

Bu fiziki şəxslər qeydiyyatda olduğu yerdən asılı olmayaraq, həmin fəaliyyətin faktiki həyata keçirildiyi ərazi üçün müəyyən edilən sadələşdirilmiş vergini ödəyirlər. Fiziki şəxs eyni dövr ərzində müxtəlif əmsallar tətbiq olunan ərazilərdə fəaliyyət göstərərsə, bu zaman ən yüksək əmsal tətbiq edilən ərazi üzrə müəyyən olunmuş sabit vergi məbləği ödənilir.

Vergi Məcəlləsində başqa hal nəzərdə tutulmamışdırsa, sabit vergi ödəyən fiziki şəxslər bu fəaliyyətə görə vergi orqanlarına bəyannamə vermirlər.

Bu fiziki şəxslər tərəfindən sadələşdirilmiş verginin düzgün hesablanmasına və vaxtında dövlət büdcəsinə ödənilməsinə Vergilər Nazirliyi nəzarət edir.

Sabit vergi ödəyən fiziki şəxslər müvafiq fəaliyyəti həyata keçirməyə başlayanadək, Vergilər Nazirliyindən könüllü olaraq növbəti ay, rüb, yarımil və ya il üçün “Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz” almalıdır. “Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz” vergi ödəyicisi yazılı müraciət etdikdə iki iş günündən gec olmayaraq, elektron qaydada müraciət etdikdə isə real vaxt rejimində verilir.

Fiziki şəxslər “Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz”i almaq üçün yazılı müraciət etdikdə, sadələşdirilmiş verginin ödənilməsini təsdiq edən ödəniş sənədini müraciətinə əlavə edir, elektron qaydada müraciət etdikdə isə, ödənişi müraciətin edildiyi zaman elektron qaydada həyata keçirir. Ödəniş sənədində vergi ödəyicisinin VÖEN-i göstərilməlidir. Sabit vergi ödəyən fiziki şəxslər hesablanmış vergini tam məbləğdə dövlət büdcəsinə ödədikdən sonra onlara “Sabit verginin ödənilməsi haqqında qəbz” verilir. “Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz”in forması Vergilər Nazirliyi tərəfindən müəyyən edilir və aşağıdakı məlumatları özündə əks etdirir:

- ✓ vergi ödəyicisi olan fiziki şəxsin adı, atasının adı, soyadı;
- ✓ vergi ödəyicisinin VÖEN-i;
- ✓ qəbzin qüvvədə olma müddəti;
- ✓ fəaliyyətin həyata keçirildiyi ərazi;
- ✓ ödənilmiş verginin məbləği;
- ✓ fəaliyyətin adı.

Misal 1: Bakı şəhərində şənliklərdə aparıcılıqla məşğul olan fiziki şəxsin ödəməli olduğu aylıq sabit verginin məbləği aşağıdakı qaydada hesablanır:

20 * 2 * 1 = 40 manat.

Misal 2: Fiziki şəxsin Bakı şəhərində fərdi qaydada həm bərbər, həm də dərzi fəaliyyəti ilə məşğul olması üçün ümumilikdə bir ayda nə qədər sadələşdirilmiş vergi ödənilməlidir?

Həlli: 15*2 + 10*2 = 50 man

"Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz" vergi ödəyicisində saxlanılır. Müvafiq fəaliyyətlə məşğul olan fiziki şəxslər tərəfindən ödənilmiş vergi onların "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz"in qüvvədə olduğu müddətdə fəaliyyət göstərib-göstərməməsindən asılı olmayaraq geri qaytarılmır və növbəti dövrlərin (ay, rüb, yarım il və il) vergiləri ilə əvəzləşdirilmir.

Sabit vergi ödəyən fiziki şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənarda bu fəaliyyət üzrə göstərilən xidmətlərə görə əldə etdiyi gəlirləri Vergi Məcəlləsi ilə müəyyən olunmuş ümumi qaydada müvafiq vergilərə cəlb edilir.

Sabit vergi ödəyən fiziki şəxslər yuxarıda göstərilən fəaliyyət növlərindən bir neçəsi ilə məşğul olduğu halda "Sabit verginin ödənilməsi haqqında qəbz"i hər bir fəaliyyət növü üçün ayrılıqda alırlar.

Sabit vergi ödəyən fiziki şəxslərin vergi öhdəliklərini "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz" əldə etməklə sadələşdirilmiş qaydada yerinə yetirməsi həmin şəxsləri nağd pul hesablaşmaları zamanı alıcıya müvafiq qəbz və digər ciddi hesabat blanklarını təqdim etmək öhdəliyindən azad etmir.

**Nəzarət sualları:**

1. Yol vergisi üzrə vergi ödəyiciləri kimlərdir?
2. Yol vergisinin vergitutma obyekti nədir?
3. Yol vergisi hansı dərəcələrlə hesablanır?
4. Mədən vergisi nədir?
5. Mədən vergisinin ödəyiciləri kimlərdir?
6. Mədən vergisinin vergitutma obyekti nədir?
7. Mədən vergisinin dərəcələrini sadalayın.
8. Mədən vergisinin hesabat dövrü hansı dövrdür?
9. Mədən vergisi nə vaxt büdcəyə ödənilir?
10. Mədən vergisi bəyannaməsi nə vaxt təqdim edilir?
11. Sadələşdirilmiş verginin ödəyiciləri kimlərdir?
12. Sadələşdirilmiş vergi üçün vergitutma obyekti nədir?
13. Sadələşdirilmiş verginin hansı dərəcələri var?
14. Sadələşdirilmiş verginin hesablanması qaydası, ödəmə müddəti və bəyannamənin verilməsi necə müəyyən edilib?

## Müstəqil öyrənmə üçün tapşırıqlar:

1. Xarici dövlətdən AR-nın ərazisinə kənd təsərrüfatı texnikası (məsələn traktor) daxil olarsa yol vergisi ödənilməlidirmi?

2. Yük daşınmasını həyata keçirən Azərbaycan Respublikasının rezidenti xarici ölkədən Azərbaycan Respublikasının ərazisinə daxil olarkən yol vergisi ödəməlidirmi?

3. Yanacağın pərakəndə satışı ilə məşğul olan yanacaqdoldurma məntəqələri yol vergisi ödəməlidirlərmi?

4. Rezident müəssisə tərəfindən hesabat ayı ərzində 90.000 litr benzin istehsal edilərək yanacaqdoldurma məntəqələrinə satılmışdır. Rezident müəssisə tərəfindən hesablanmalı olan yol vergisinin aylıq məbləğini müəyyən edin.

5. Rezident müəssisə tərəfindən hesabat ayı ərzində 130.000 litr benzin istehsal edilərək ixrac edilmişdir. Rezident müəssisə tərəfindən hesablanmalı olan yol vergisinin aylıq məbləğini müəyyən edin.

6. Yanacaqdoldurma məntəqəsinin sahibi olan fiziki şəxs xarici ölkədən 500.000 litr dizel yanacağı idxal etmişdir. Bu əməliyyata görə nə qədər yol vergisi ödənilməlidir?

7. Duz yerin təkindən çıxarılan faydalı qazıntılara aiddirmi?

8. VM-nin 218.1.1-ci maddəsinə əsasən VM-nin XI fəslinin müddəaları nəzərə alınmaqla, ƏDV məqsədləri üçün qeydiyyata alınmamış və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatların həcmi 200.000 manat və ondan az olan şəxslər sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququna malikdirlər.

a) burada 200.000 manat müəyyənləşdirilərkən satışdankənar gəlirlər də nəzərə alınırmı?

b) 200.000 manat müəyyənləşdirilərkən sadələşdirilmiş vergi ödəyicisi tərəfindən təqdim edilmiş, lakin pulu hələ ödənilməmiş malların (işlərin, xidmətlərin) dəyəri nəzərə alınırmı?

c) 200.000 manat müəyyənləşdirilərkən sadələşdirilmiş vergi ödəyicisi tərəfindən təqdim ediləcək mala görə əvvəlcədən alınmış avans ödənişləri nəzərə alınırmı?

9. AR-nın rezidenti olan sadələşdirilmiş vergi ödəyicilərinin AR-dan kənarda əldə etdikləri gəlirlər AR-da vergiyə hansı dərəcə ilə cəlb olunur?

10. A müəssisəsi həm əmlakın icarəyə verilməsindən, həm də xidmət göstərilməsindən gəlir əldə edir. Müəssisə əmlakın icarəyə verilməsi fəaliyyəti üzrə mənfəət vergisinin, xidmət göstərilməsi üzrə isə sadələşdirilmiş verginin ödəyicisidir. Müəssisənin balansında olan əsas vəsaitlərin amortizasiya xərci, rəhbərliyin və işçilərin əmək haqqı xərcləri, kommunal xərclər, əmlak vergisi və digər xərclər bu iki fəaliyyət növü arasında necə bölüşdürülməlidir?

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi.
2. “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 30.08.2000-ci il tarixli, 393 nömrəli fərmanı.
3. “Hasil edilmiş neftin və qazın texnoloji proseslə əlaqədar quyuya geri vurulma normativlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasi Nazirlər Kabinetinin 12 yanvar 2001-ci il tarixli 11 № -li qərarı.